

**MUSA ƏLƏKBƏRLİ**

# UÇDU

***Görkəmli şairimiz İlyas Tapdığın xatirəsinə***

**Körpə çağlarından yetim xəyalı
Gah ulduza qondu, gah aya uçdu.
İçində sərhədsiz bir dərd böyütdü
Çox çəpər söküldü, çox paya uçdu.**

**Uşaq şairiydi öncül, birinci,
Yazdığı sətirlər, kəlmələr-inci.
Təkcə şeir oldu onun sevinci,
Nə şöhrətə uydu, nə paya uçdu.**

**Heyif, haqq etdiyi haqqı almadı,
Unudan unutdu haqqı, almadı.
O, bu istəyində haqdı, almadı,
Uçanda çox sadə, çox saya uçdu.**

**Qəmli anadiltək ötürdü, getdi,
Ruhunu tanrıya yetirdi, getdi.
Bir quru canını götürdü getdi,
Nə qazanc pozuldu, nə maya uçdu.**

**Qələmi ustaydı cavan çağından,
Çoxuna köz qıydı öz ocağından...
Vaqif zirvəsindən, Vurğun dağından
Ilyas Tapdıq adlı bir qaya uçdu.**

**Ay Musa, gəl saxla dilini, olmur,
Cilovla o qəzəb selini, olmur.
O cür sənətkarın ölümü olmur,
Dünyadan başqa bir dünyaya uçdu.**

**26.12.2016**

ədalət.2016.-29 dekabr.S.4.